## Hökumət əhalinin əmanətlərini qaytarır

*Birdəfəlik ödəmənin alınması ilə bağlı banka mğraciət 2012-ci il 31 dekabr tarixinədək davam edəcək*

Dövlət başçısı İlham Əliyev martın 14-də keçmiş SSRİ Əmanət Bankının Azərbaycan Respublikası Bankının ölkə vətəndaşları olan əmanətçilərinə fərdi birdəfəlik ödəmələrin verilməsi haqqında fərman imzalayıb. Fərmanda bildirilir ki, əmanətçilərə fərdi birdəfəlik ödəmələrin verilməsinə 2012-ci ilin iyun ayından başlanacaq və 2013-cü il 31 dekabr tarixinədək başa çatdırılacaq. Birdəfəlik ödəmələrin verilməsi üzrə keçmiş SSRİ Əmanət Bankının Azərbaycan Respublikası Bankının hüquqi varisi olan «Kapital Bank» Açıq Səhmdar Cəmiyyəti birdəfəlik müvəkkil bank hesab edilir.

Ölkə başçısı, eyni zamanda, SSRİ Əmanət Bankının Azərbaycan Respublikası Bankının Azərbaycan Respublikasının vətəndaşları olan əmanətçilərinə fərdi birdəfəlik ödəmələrin verilməsi qaydalarını da müəyyən edib.

*Birdəfəlik ödəmənin*
*verilməsi qaydası və müddəti*

Qaydalara görə birdəfəlik ödəməni almaq üçün əmanətçi şəxsi əmanət hesabını bağlamaq barədə müvəkkil banka ərizə ilə müraciət etməli və ərizəyə əmanət kitabçası və ya onu əvəz edən sənəd, vətəndaşın şəxsiyyət vəsiqəsi, soyad və ad dəyişikliyi olduğu halda, həmin dəyişikliyi təsdiq edən sənədin notarial qaydada təsdiq edilmiş surəti, vəsait vərəsələrə ödəniləcəyi halda vərəsələrin miras əmlaka (əmanətə) hüquqları barədə sənədin notarial qaydada təsdiq edilmiş surəti və ya bu barədə müvafiq məhkəmə qərarı da təqdim edilir.

Sənədləri təqdim edən əmanətçilərin əmanət kitabçasında olan məlumatlar bankda olan sənədlərdəki məlumatlarla tutuşdurulur. Tutuşdurma zamanı məlumatlar öz təsdiqini taparsa, əmanətçiyə birdəfəlik ödəmənin verilməsi, Qaydalara uyğun olaraq, bank tərəfindən həyata keçirilir. Tutuşdurma zamanı məlumatlarda uyğunsuzluq aşkar edildikdə, əmanətçinin müraciəti əsasında Xüsusi Komissiya tərəfindən araşdırma aparılır və müvafiq qərar qəbul edilir. Əmanət kitabçası itirildikdə və ya təqdim olunmaq üçün yararsız vəziyyətə düşdükdə, əmanətçinin verdiyi məlumatlar üzrə bankda tutuşdurma aparılır. Tutuşdurma nəticəsində əmanətçinin öz ərizəsində verdiyi məlumatlar təsdiqini taparsa, bankın təklifi ilə Xüsusi Komissiyanın qərarı əsasında əmanətçiyə əmanət kitabçasını əvəz edən sənəd verilir və birdəfəlik ödəmənin verilməsi həmin sənədə əsasən həyata keçirilir. Əmanət kitabçasını əvəz edən sənədin formasını Xüsusi Komissiya təsdiq edir. Birdəfəlik ödəmə əmanətçinin arzusu ilə nağd qaydada və ya onun digər bank hesabına köçürülməsi yolu ilə verilir.

*Birdəfəlik ödəmənin alınması ilə bağlı*
*müraciətin son tarixi...*

Birdəfəlik ödəmənin alınması ilə bağlı banka müraciət 2012-ci il 31 dekabr tarixinədək davam edəcək. Həmin müddətdən sonra müraciətlər qəbul edilməyəcək və onlara baxılmayacaq. Birdəfəlik ödəmənin alınması üçün əmanətçilərin müraciət etməsi və həmin ödəmələrin verilməsi müddəti dövlət başçısı tərəfindən qanunvericiliklə müəyyən edilmiş qaydada uzadıla bilər.

Birdəfəlik ödəmənin verilməsi zamanı yaranmış mübahisəli məsələlərə ölkə başçısının fərmanına uyğun olaraq yaradılan Xüsusi Komissiya nəzarəti həyata keçirəcək. Xüsusi Komissiyanın birdəfəlik ödəmənin verilməsinə dair qəbul etdiyi qərarlar bank üçün məcburidir. Əmanətçi Xüsusi Komissiyanın qərarından qanunla müəyyən edilmiş qaydada aidiyyəti üzrə məhkəməyə müraciət edə bilər.

*Birdəfəlik ödəmənin hesablanması...*

| Əmanət qalığı (manat) | Hesablanma qaydası |
|---|---|
| 0,04 manata (2000 rubla) qədər olduqda | Əmanət qalığının hər bir qəpiyi üçün 75 manat |
| 0,04 manatdan 0,1 manata (2000 rubldan 5000 rubla) qədər olduqda | 300 manat + 0,04 manatdan artıq olan əmanət qalığının hər bir qəpiyinə 50 manat |
| 0,1 manatdan 0,2 manata (5000 rubldan 10000 rubla) qədər olduqda | 600 manat + 0,1 manatdan artıq olan əmanət qalığının hər bir qəpiyinə 40 manat |
| 0,2 manatdan (10000 rubldan) yuxarı | 1000 manat + 0,2 manatdan artıq olan əmanət qalığının hər bir qəpiyinə 25 manat |

Yəni əmanət qalığı 2000 rubl olduqda 300 manat, 3000 rubla 400 manat, 4000 rubla 500 manat, 5000 rubla 600 manat, 6000 rubla 680 manat, 7000 rubla 760 manat, 8000 rubla 840 manat, 9000 rubla 920 manat, 10 000 rubla 1 000 manat, 15 000 rubla 1 250 manat ödəniləcək.

Onu da qeyd edək ki, parlamentin İqtisadi siyasət komitəsinin sədri Ziyad Səmədzadə mətbuata açıqlamasında bildirib ki, ödəmələrin verilməsinə dövlət büdcəsindən 1 milyard manata yaxın vəsait yönəldiləcək. Əmanətlərin nağd şəkildə qaytarılmasının inflyasiyaya səbəb olacağı haqda səslənən fikirlərə münasibət bildirən maliyyə naziri Şamir Şərifov hökumətin ödəmələrlə bağlı inflyasiyanın artacağını proqnozlaşdırmadığını qeyd etmişdir. Maliyyə naziri birdəfəlik ödəmələrdən vergi tutulmayacağını da bildirmişdir: «Vergi Məcələlləsində bu kimi ödəmələrə vergi hesablanması nəzərdə tutulmayıb».

Aytən NƏBİYEVA